# Vətən müharibəsində qələbəmiz və müəllim sözü

**Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında xalqımızın və Müzəffər Ordumuzun qazandığı böyük tarixi qələbənin işığına yığışdı bütün dünya azərbaycanlıları. Hər bir azərbaycanlı bu qələbə sevincini yaşamaqla qürur duydu. Üç onillik ərzində vətənimizin bir hissəsinin işğal altında qalması dərdinin ağırlığını hər kəs, hər bir ailə, bütün Azərbaycan çəkirdi. Bu problemə son qoyan qalib ölkənin Müzəffər Ali Baş Komandanının adı Azərbaycanın şanlı tarix səhifəsinə qızıl hərflərlə yazıldı.**

Vətən müharibəsindəki qələbənin mahiyyəti, əhəmiyyəti və tarixi rolunun izahında hansı fənni tədris etməyindən asılı olmayaraq müəllimlərimizin üzərinə böyük vəzifələr düşür. Müəllim onu dinləyən şagird və tələbəyə müəyyən bir fənn, peşə, ixtisas və elm sahəsinin sirlərini öyrətməklə yanaşı hər bir dərsdə əxlaqi-tərbiyəvi söhbət aparmaqla onlara nəsihət və öyüdlərini də verməlidir. Bu baxımdan müəllim üçün böyük imkan vardır.

Şəxsi təcrübəmdən deyə bilərəm ki, dərsin əsas mövzusunun tədrisi zamanı həyati müşahidələrdən də istifadə etmək zərurəti yaranır. 44 günlük Vətən müharibəsi günlərində elə bir azərbaycanlı yox idi ki, bu müharibənin anları ilə yaşamasın. Belə bir şəraitdə sinifdə və ya auditoriyada (canlı və ya onlayn şəklində) neçə gözün dikildiyi, neçə diqqətin yönəldiyi, neçə qulağın dinlədiyi müəllim öz sözü ilə "musəlləh əsgər" rolunda idi. İndi mən xarici dil fənnini tədris etdikdə uğurlu nəticənin xeyrini başa salmaq üçün belə bir müqayisədən istifadə etməyi məqbul sayıram. Müharibənin getdiyi günlərdə möhtərəm Prezidentimiz bütün cəbhələrdə fəaliyyət göstərirdi: xalqa rəhbərlik, orduya baş komandanlıq, beynəlxalq diplomatik münasibətlərdə Azərbaycanın siyasətinin haqq və ədalət uğrunda olduğunu sübüt etmək, aparıcı dünya dövlətlərinin nümayəndələri və jurnalistləri ilə canlı və ya onlayn görüşərək xalqımızın istəyini dünyaya yaymaq. Belə görüşlərin bir neçəsi Prezidentimizə və Ermənistanın baş nazirinə ünvanlanmış sualları cavablandırmaq formasında keçirdi. Səlis ingilis dilində verilən cavablarda Prezident İlham Əliyev hamını heyrətdə qoyur və əla nəticəyə nail olurdu. Düşmən tərəfi isə lağ obyektinə çevrilirdi. Təşkil edilən belə dialoqlarda artıq 8 noyabra qədər Ermənistanın baş naziri Prezident İlham Əliyev qarşısında məğlub olmuşdu. Bu məqam tələbəyə ingilis dilini öyrətmək üçün həvəsləndirici və həyati misal kimi təqdim edilməlidir.

Prezident İlham Əliyev çıxışlarında göstərir ki, bizim gücümüz xalqımızın birliyindədir. Müəllim yeri düşdükcə bunu izah etməli və ölkəmizdəki multikultural dövlət siyasətinin üstünlüklərini,dini və etnik müxtəlifliyinə baxmayaraq bütün azərbaycanlıların birləşib bir hədəf uğrunda mübarizə apardıqlarını dinliyəcisinə çatdırılmalıdır.

Müəllim dərs vaxtının səmərəli keçirilməsi və nəticələrinin şagird və tələbə üçün yaddaqalan olmasından bəhs etdikdə möhtərəm Prezidentimizin aşağıdakı sözlərinə istinad edə bilər: "Biz döyüş meydanında düşməni çökdürdük. Döyüş meydanında düşmənə elə dərs verdik ki, onlar bu günə qədər bu dərsdən özlərinə gələ bilmirlər".

Dərslərə aid mövzularda vətən sevgisindən bəhs edildikdə Qarabağ uğrunda xalqımızın apardığı mübarizə hər bir müəllim üçün istinad örnəyi olmalıdır. Bu Vətən müharibəsində döyüşçülərimizin rəşadəti, burada və buna qədər keçilən yolda göstərilən qəhramanlıqlar (Mübariz İbrahimovun şəxsi nümunəsində) müəllim sözünün əhəmiyyətini artırmaqda əvəzsiz vasitədir. Öz tərcübəmdən bilirəm ki, dərsin gedişində danışıq və izah mövzusu olan bir çox bu kimi məsələlər haqqında fikir bölgüsü dərsdən sonra da həmkarlarımla davam etdirilir.

Vətən müharibəsində xalqımızın və ordumuzun zəfəri müasir tariximizin şanlı səhifələrindən biri kimi gənclərə təlqin edilməlidir. Hər hansı bir tarix müəllimi üçün bundan artıq parlaq misal ola bilməz. Çünki müəllim də, onu dinləyən də bu hadisələri yaşamış, onun axarında iştirak etmişdir. Xalqımızın çox dəyərli tarixi-mədəni irsindən, abidələrindən söhbət getdikdə onların qorunması nəsillərə və dünyaya göstərilməsindən bəhs etmək vacib məsələdir. Bu işin əhəmiyyətini izah edərkən erməni vandallarının törətdiklərini təkcə xatırlatmaqla kifayətlənməməli, onun mahiyyətini geniş şəkildə aydınlaşdırmaq lazımdır. Vətənini və peşəsini sevən müəllimin sözünün təsir gücü ilə tarixi günlər onu dinləyən şagird və ya tələbə üçün unudulmaz hadisəyə çevrilər.

**Naimə HƏMİDOVA,**
*ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin müəllimi*